Regiona barış gətirən qətiyyətli siyasət

İlham ƏLİYEV: "Sülh hələ də kövrəkdir, onu qorumaq və möhkəmləndirmək lazımdır"

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni geopolitik reallıq bütövlükdə regionun taleyini və gələcək inkişaf istiqamətlərini köklü şəkildə dəyişdi. Onilliklər boyu münaqişə və gərginlik ocağı kimi tanınan bölgəmiz, məhz Azərbaycanın daxili və xarici siyasətdə nümayiş etdirdiyi qətiyyət, hərbi zəfər və diplomatik təşəbbüskarlıq sayəsində sülhün, tərəqqinin və əməkdaşlığın nümunəvi ünvanına çevrildi. Dünyanın qlobal müharibələr və siyasi təlatümlərlə çalxalandığı bir dövrdə Cənubi Qafqazda əldə olunan de-fakto barış mühiti beynəlxalq sammitlərdə təqdir edilən mühüm nailiyyətdir.

Sülhü kövrək edən əsas məqamlar

Lakin bu sülh mühitinin nə qədər həssas mərhələdə olduğunu ən dəqiq və reallığa əsaslanan şəkildə Prezident İlham Əliyev Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə Görüşündəki nitqində belə ifadə edib: "Biz müharibədə qalib gəldik, işğalçıları torpaqlarımızdan qovduq. Lakin 30 illik əzablar, soyqırımı, şəhər və kəndlərimizin dağıdılmasına görə onlardan qisas almadıq. Biz döyüş meydanında qisas aldıq və Ermənistana sülh təklif etdik".

Dövlətimizin başçısı vurğulayıb ki, burada da xalqımızın mənəvi keyfiyyətləri bir daha özünü büruzə verdi: "Burada da xalqımızın mənəvi keyfiyyətləri bir daha özünü büruzə verdi. Biz artıq məğlub vəziyyətdə olana zərbə endirməmişik. Biz xalqımızın bu qədər əzabına bais olmuş barbarların və uşaq qatillərinin səviyyəsinə enmədik. Biz sülh təklif etdik və bir ildən bir az çoxdur ki, sülh içində yaşayırıq. Bu sülh hələ də kövrəkdir, onu qorumaq və möhkəmləndirmək lazımdır".

Bu günlərdə Prezident İlham Əliyevin sosial media hesablarında Vətən müharibəsi ilə bağlı paylaşılan növbəti videoçarxda da



məhz bu mesaj verilib: "Sülh hələ də kövrəkdir, onu qorumaq və möhkəmləndirmək lazımdır".

Prezidentin bu xəbərdarlığı günümüzün ən aktual siyasi reallığını özündə əks etdirir. Həqiqətən də, döyüş meydanında qazanılmış qələbə və postmünaqişə dövründə bərqərar olunmuş nisbi sakitlik hələ yekun nəticə demək deyil. Sülhü kövrək edən əsas məqam tərəflər arasında de-fakto mövcud olan sakitliyin hüquqi müstəvidə - de-yure tam möhkəmləndirilməməsi, Ermənistanın isə prosesi uzatmaqla bu kövrəkliyi riskə atmasıdır.

Azərbaycan Vətən müharibəsindən dərhal sonra qalib tərəf olmasına baxmayaraq, bölgədə əbədi əmin-amanlığın təmin olunması üçün Ermənistana beynəlxalq hüququn normalarına əsaslanan 5 əsas prinsip təqdim etdi. Rəsmi Bakının bu humanist və uzaqgörən addımları sülh gündəliyinin əsasını qoydu. Ölkəmizin ardıcıl və qətiyyətli siyasəti nəticəsində vasitəçilərə, üçüncü tərəflərə lüzum qalmadan iki ölkə arasında birbaşa dialoqlar başladı. Bu birbaşa təmaslar tezliklə konkret və real nəticələrlə yadda qaldı. Qazax rayonunun 4 kəndi Azərbaycana qaytarıldı. İki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə start verildi, ilk sərhəd direkləri quraşdırıldı. Paralel olaraq diplomatik mərhələdə mühüm addımlar atılmağa başlandı. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində iki ölkə liderləri arasında görüş sülh prosesinə ciddi təkan verdi. Ardınca Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Birgə Bəyannamə imzalandı. Eyni zamanda iki dövlət arasında sülh sazişinin mətni paraflandı.

Bütün bu addımlar Azərbaycanın regionda sülhün əsas memarı olduğunu bir daha təsdiqlədi.

İrəvanın sülh prosesini dondurmaq cəhdi mənasızdır

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Bağdad şəhərində keçirilən Xarici İşlər Nazirləri Şurasının 52-ci sessiyasında qəbul edilən Bağdad Bəyannaməsində də Azərbaycan-Ermənistan arasında normallaşma prosesindəki irəliləyişlər, xüsusilə sazişin paraflanması alqışlanıb.

Lakin bütün bunlarla yanaşı bölgədə sülh hələ də kövrək qalmaqda davam edir. Sülhün qorunması və möhkəmləndirilməsi hər iki tərəfin səmimi iradəsindən asılıdır. Azərbaycan de-fakto sülhü bərqərar etsə də, qarşı tərəfin hüquqi müstəvidə üzərinə düşən öhdəlikləri yerinə yetirməkdən yayınması, gələcəkdə revanşizm təhlükəsinin tam aradan qalxmaması sülhün kövrəkliyini saxlayan əsas amildir. Sülhü möhkəmləndirmək üçün iki ölkə arasında yekun sülh sazişi imzalanmalı və bütün hüquqi əngəllər aradan qaldırılmalıdır.

Hazırda İrəvanın sülhdən yayınmaq cəhdləri və ləngitmə taktikası müşahidə olunur. Belə ki, Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyət qarşısında "sülhpərvər" imici yaratmağa çalışsa da, əməli addımlarda prosesi süni şəkildə uzatmaq, vaxt qazanmaq və sülh müqaviləsinin imzalanmasını gecikdirmək yolunu tutub.

Baş nazir Nikol Paşinyanın son bəyanatları İrəvanın qeyri-səmimiliyini növbəti dəfə ifşa etdi. Əvvəllər yeni konstitusiyanın qəbulunu və Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasını 2026-cı ilin sonu - 2027-ci ilin əvvəli ilə əlaqələndirən Paşinyan, indi sülh sazişinin imzalanması və ratifikasiyası məsələsini 2031-ci ilədək uzatmaq niyyətində olduğunu bildirib.

Sülh müqaviləsinin mətninin artıq razılaşdırıldığı, Vaşinqtonda paraflandığı bir vaxtda məsələni daha 5 il uzatmaq cəhdi mahiyyətcə Ermənistanın sülh prosesini qeyri-müəyyən müddətə dondurmaq cəhdidir.

Ötən il Vaşinqton Zirvəsində sülh müqaviləsinin imzalanmamasının əsas səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən Azərbaycana qarşı ərazi iddialarının yer almasıdır.

İƏT-in Bağdad Bəyannaməsində də Ermənistan tərəfinə İƏT üzv dövlətləri adından sülh sazişinin imzalanması istiqamətində yerdə qalan hüquqi və siyasi əngəllərin aradan qaldırılması ilə bağlı çağırış edilib.

Ermənistan öz konstitusiyasından bu iddiaları çıxarmadığı müddətdə gələcək münaqişələr üçün hüquqi zəmin yaratmış olur.

İrəvanın sülh prosesini ləngitmə taktikası Bakının prinsipial mövqeyini sarsıda bilməz. Çünki proseslər Azərbaycanın xeyrinə, Ermənistanın isə ziyanına işləyir.

Azərbaycan öz hərbi qüdrətini gündən-günə artırır, azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi sürətli bərpa-quruculuq işləri sayəsində Böyük Qayıdış Proqramını uğurla reallaşdırır. Şərqlə Qərbin əsas nəqliyyat-logistika qovşağına çevrilən ölkəmiz qlobal enerji təhlükəsizliyində strateji rol oynayır.

Bu kontekstdə sülhü süni şəkildə yubadan İrəvan regionun iri iqtisadi, enerji və nəqliyyat layihələrindən kənarda qalır. Onilliklər boyu yürütdüyü işğalçılıq siyasəti ilə "dalan ölkə"yə çevrilən Ermənistan, bu uzatma taktikası ilə özünü yeni iqtisadi və siyasi təcridə məhkum edir.

Azərbaycan Cənubi Qafqazda de-fakto sülhü bərqərar edib. Bu sülhün kövrəkliyini aradan qaldırmaq, onu dayanıqlı və daimi etmək üçün Ermənistan vaxt qazanmaq taktikasına son qoymalıdır. İrəvan başa düşməlidir ki, zamanı uzatmaq bölgədəki reallığı və Bakının şərtlərini dəyişməyəcək. Bu isə elə Ermənistanın özünə ziyandır.

"Azərbaycan"

Bu gün Azərbaycan cəmiyyəti bütün məsələlər üzrə birlik nümayiş etdirir

Paytaxtımız Bakı artıq beynəlxalq və qlobal tədbirlərin keçirildiyi siyasi və mədəni bir mərkəzə çevrilib. Bu onun göstəricisidir ki, Azərbaycan artıq geosiyasi nüfuzu və sosial-iqtisadi, mədəni inkişafı ilə dünyanın diqqət mərkəzindədir. Növbəti belə beynəlxalq tədbir oktyabrın 27-də Prezident İlham Əliyevin iştirakı ilə «Ortaq gələcək naminə dialoq» mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu oldu. Ölkəmizin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Forumda dünyanın 100-dən artıq ölkəsindən gəlmiş 500-dən çox qonaq, ümumilikdə isə 2000 nəfərdən artıq nümayəndə iştirak edib. Forumda yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər. İştirakçıların sayı ötən 15 il ərzində keçirilən forumun mədəniyyətlərarası münasibətləri və digər əlaqədar məsələləri həll etmək üçün olduqca səmərəli və əhatəli platformalardan birinə çevrildiyinin təsdiqidir.

Forumun açılış mərasimində Prezident İlham Əliyev geniş çıxış edib. Qeyd edib ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu son illər ərzində, sözün əsl mənasında, effektiv və inklüziv bir platformaya çevrilərək mədəniyyətlərarası münasibətlərin inkişafına, həmçinin digər sahələrə öz töhfəsini vermişdir: «Azərbaycan tarixən və hər zaman çoxmədəniyyətli ölkə olub. Biz Avropa ilə Asiya arasında yerləşirik və əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub». Ökəmizin başçısı vurğulayıb ki, Azərbaycanda yaşayan xalqlar multikulturalizm, həmçinin dini və etnik tolerantlıq ənənələrini daim uca tutublar və bu əsrlər boyu davam edib. Ona görə də bu Azərbaycanda bir çox sahələrdə uğurlar əldə edilib. Çünki bütün etnik qrupların, dinlərin nümayəndələri Konstitusiyamız əsasında nəinki bərabər hüquqlara malikdir, o cümlədən bir ailədəki kimi yaşayırlar. Bu, bir həqiqətdir ki, İkinci Qarabağ müharibəsində Azərbaycanda yaşayan xalqların nümayəndələri öz Vətənlərini təcavüzkar Ermənistanın 30 illik işğalından azad etmək üçün canları və qanları bahasına ölüm-dirim mübarizəsinə qoşuldular. Çünki həmin xalqlar ölkəmizdə həmrəylik, qarşılıqlı anlaşma və hörmət mühitində yaşayırlar. Biz həmişə vahid azərbaycançılıq ideyası ətrafında birləşmişik və bu gün də bu birləşmə daha da böyük miqyasda davam edir.

Beynəlxalq tədbirdə vurğulanıb ki, bu gün Azərbaycan cəmiyyəti bütün məsələlər üzrə birlik nümayiş etdirir. Azərbaycanda hər hansı daxili risklərimizin olmadığını dəfələrlə söylədiyini xatırladan dövlətimizin başçısı deyib ki, bütün potensial risklər bizim hüdudlarımızdan kənardan gəlir: « İdeoloji risklər fiziki risklər qədər təhlükəlidir. Ona görə biz hər zaman ayıq-sayıq olmalıyıq və milli mənsubiyyətimizin, dövlətçiliyimizin qorunmasına, müstəqilliyimizin müdafiə olunmasına və həyat tərzimizin qorunmasına çox bağlı olmalıyıq».

Azərbaycanın dövlət başçısı Forumdakı çıxışında işğaldakı torpaqlarımızın 44 günə və həm də ordumuzun dünyanı heyran edəcək bir peşəkarlıqla işğaldan azad etməsindən danışıb: « Biz beynəlxalq hüququ, ədaləti bərpa etdik. Biz öz gücümüz hesabına BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrin icrasını təmin etdik».

Bu gün dünyanın bir çox bölgəsində qanlı müharibələrin davam etdiyini bildirən Prezident İlham Əliyev deyib ki, müharibələrin dayandırılması ilə bağlı Azərbaycanın təcrübəsi mövcuddur: «Biz müharibədən qalib çıxdıq və bizim mübarizəmiz düzgün idi. Düşmən kapitulyasiya etdikdən sonra biz bundan o tərəfə getmədik, dayandıq və sülh təklif etdik». Bu təcrübəyə nəzər salınmalı olduğunu və müharibə tərəflərinin bunu tədqiq etməli olduqlarını deyən ölkə başçısı vurğulayıb ki, bizim qurduğumuz mövcud presedent bəzi münaqişələrin aradan qaldırılmasına da xidmət edə bilər.

Forumda Prezident İlham Əliyevin xüsusi vurğuladığı digər məsələ isə beynəlxalq münasibətlərdə ikili standartlara qarşı mübarizənin davam etdiriləcəyidir. Dövlətimizin başçısı güman edir ki, bu cür yanaşmalar beynəlxalq münasibətlər sistemindən tamamilə çıxarılmalıdır. Ona görə ki, beynəlxalq hüququn prinsipləri ayrı-ayrı dövlətlərin siyasi maraqlarından asılı olaraq fərqli şəkildə tətbiq edildikdə ədalət anlayışı zərər görür, beynəlxalq institutlara etimad zəifləyir və münaqişələrin həlli daha da çətinləşir. Azərbaycanın müasir tarixində yaşanan hadisələr bu məsələnin nə qədər əhəmiyyətli olduğunu göstərir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə milli iradəsini ortaya qoydu, beynəlxalq hüquqa əsaslanan mövqeyinin həyata keçirilməsinə nail oldu. Bu gün ikili standartlara qarşı prinsipial mövqenin müdafiəsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir. Dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması, bütün ölkələrə münasibətdə eyni meyarların tətbiqi beynəlxalq təhlükəsizliyin təmin edilməsi üçün vacibdir.

Azad MƏMMƏDOV,
"Qəbələ səsi"